Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Balacaların cizgi filmi dünyası

**Beynəlxalq Cizgi Filmləri Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2022**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**“Balacaların cizgi filmi dünyası”** - Beynəlxalq Cizgi Filmləri Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. Ruhiyyə Məmmədli; ixt.red. və burax. məsul Ş. Qəmbərova; - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 64s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

# Giriş

***Cizgi filmləri uşaqları həm əyləndirər, həm öyrədər, həm də xəyal dünyalarını qurar.***



Beynəlxalq Cizgi Filmləri Günü (İnternational Animation Day), 2002-ci ildə ilk cizgi filmləri texnologiyasının ictimaiyyətə təqdimatının 110 illiyi münasibətilə Beynəlxalq Animasiya Kinosu Assosiasiyasının (The İnternational Animated Film Association, ASİFA) Fransa şöbəsinin təşəbbüsü ilə təsis olunub. Bu əlamətdar gündə 1892-ci ildə Parisdə rəssam və ixtiraçı Emil Reyno tamaşaçıları yeni, o zamana qədər heç kimin görmədiyi tamaşaya – "optik teatra" dəvət edir. İstedadlı ixtiraçı özünün hərəkət edən şəkillərini göstərməklə praksinoskop aparatını ilk dəfə açıq şəkildə nümayiş etdirmişdir. Biz indi bu hadisəni müasir cizgi filmlərinin timsalı adlandırardıq və məhz bu tarix hal-hazırda animasiya kinosu dövrünün başlanğıcı hesab olunur. Bir çox ölkələrdə bayram tədbirləri təyin olunmuş vaxtdan bir neçə gün əvvəl başlayır. Kinematoqrafiyanın əsas növlərindən biri də animasiya filmləridir. Ona multiplikasiya kinosu da deyilir. Animasiya kinosunda fantastika, bədii uydurma mühüm yer tutduğuna görə tədqiqatçılar bəzən onu təsviri sənət növlərinə daha yaxın hesab edir və ya kinematoqrafiya texnikasından istifadə edən müstəqil sənət sayırlar. Qrafik animasiya fantastik hadisə və əhvalatların təsviri üçün özünəməxsus

ifadə vasitələrinə malikdir. Elektronikaya və kibernetik maşınların tətbiqinə əsaslanan animasiya filmləri də var ki, onlara kompüter animasiyası deyilir. Bu cür filmlər hazırda çox geniş yayılıb və sürətlə inkişaf etməkdədir. Animasiya rejissorları son zamanlar öz filmlərinə bədii və sənədli kadrlar da daxil edir, bir növ "hibrid" formalar yaradırlar.

ABŞ-da ilk cizgi filmi 1906-cı ildə yaranıb. Azərbaycanda cizgi filmlərinin yaranması isə ötən əsrin 30-cu illərinin əvvəllərinə təsadüf edir. 1933-cü ildə Bakı kinostudiyasında "Lökbatan" və "Neft simfoniyası" sənədli filmləri çəkilərkən texniki animasiyadan istifadə etmişdilər. "Cat" təlimat filmində isə bütünlüklə animasiyadan istifadə olunmuşdu. Məhz bu film ekranlara buraxılandan sonra kinostudiyada bir qrup təşəbbüskar ilk dəfə cizgi filmi yaratmağı qərara aldı. Film üçün mövzu Azərbaycan xalq nağıllarından götürüldü və "Abbasın bədbəxtliyi" adlı film çəkildi. Böyük Vətən müharibəsi ərəfəsində studiyada "Sindibad dəniz səyyahıdır" cizgi filminin çəkilişlərinə hazırlıq görülürdü. Bu, səsli film olmalı idi. Amma müharibənin başlanması ilə əlaqədar işlər yarımçıq qalır. 1960-cı illərin sonlarında kinostudiyada cizgi filmlərinin çəkilişi üçün yeni şərait yaradılır, rəssamlar qrupu təşkil olunur. Eyni zamanda bu sahə ilə bağlı studiyada xüsusi kurslar açılır. 1968-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında cizgi filmləri sexi bərpa olunur. 1969-cu il fevralın 28-də "Cırtdan" xalq nağılının motivləri əsasında eyniadlı cizgi filminin istehsalı başa çatdırılır. Film həmin il ekranlara buraxılır və uzun müddət televiziyada və kinoteatrlarda tamaşaçılara təqdim olunur. Beləliklə,

“Cırtdan”ın istehsalı ilə Azərbaycanda cizgi filmləri tarixində ikinci dövr başlanır. 1970-ci illərdə kinostudiyanın cizgi filmləri şöbəsində 20-dən artıq ekran əsəri istehsal olunmuşdu. 1971-ci ildə A.Şaiqin eyniadlı əsəri əsasında çəkilmiş “Tülkü həccə gedir” (rej. N.Məmmədov, B.Əliyev) cizgi filmi istər üslub, istərsə də sənətkarlığa görə ən maraqlı işlərdən idi. “Pıspısa xanım və Siçan bəy” (1974) və “Cücələrim” (1980) cizgi filmlərində (rej. A.Axundov) orijinal plastik həllin axtarışları aydın nəzərə çarpırdı. “Toplan və kölgəsi” (1977), “Sonrakı peşmançılıq” (1978) və “Sehrlənmiş küpə” (1979) cizgi və applikasiya filmlərində xeyirxah, nəcib olmağın vacibliyindən, əməksevərlikdən, böyüklərə hörmətdən və digər insani keyfiyyətlərdən danışılır. “Qız qalası əfsanəsi” cizgi filmi (1978) xalq əfsanəsinin motivləri əsasında yaradılıb. 80-ci illərdə bu sahədə mühüm inkişaf yaşanmışdı. Həmin dövrdə “Azərbaycanfilm”də 38 adda cizgi filmi istehsal olunmuşdu. Bunlardan “Cücələrim”, “Meşəyə insan gəlir”, “Sehrli ağac”, “Taya”, “Dəcəl dovşan”, “Sandıq”, “Sən belə cumbulusan”, “Sehrli ləçək”, “Uçan zürafə”, “Qəribə əjdaha”, “Balaca çoban”, “Humayın yuxusu”, “Ana ağaca qonub” və s. cizgi, “Xeyir və Şər”, “Cırtdan-pəhləvan”, “Uşaq və külək”, “Akvarium”, “Cırtdan və div”, “Yeni il əhvalatı”, “Sehrli naxışlar” applikasiya üsulu ilə çəkilmişdi. “Cücələrim” filmi (rej. A.Axundov) tez bir zamanda populyarlıq qazanmışdı. N.Gəncəvinin “Xeyir və Şər” əsərinin motivləri əsasında çəkilmiş eyniadlı applikasiya filmi isə (rej. N.Məmmədov) böyüklər üçün nəzərdə tutulmuşdu. Kinolentdə susuz səhrada Xeyirin ürək genişliyi ilə xeyir iş

görməsindən və buna cavab olaraq Şərin göstərdiyi bədxah əməllərdən danışılır. 80-ci illərin sonunda keçmiş ittifaqda, o cümlədən ölkəmizdə gedən ictimai-siyasi proseslər nəticəsində "Azərbaycanfilm"in nəzdindəki birlik və şöbələr müstəqil fəaliyyət göstərməyə başladı. Multiplikasiya sexinin də adı dəyişdirilərək "Azanfilm" yaradıcılıq-istehsalat birliyinə çevrildi. 90-cı illərdə "Azanfilm" markası altında 19 cizgi filmi istehsal edilmişdi. "Bir dəfə haradasa..." (rej. V.Talıbov), "İthaf" (Ş.Nəcəfzadə), "Oda" (V.Talıbov, R.İsmayılov), "Sərkəyin dastanı" (A.Məhərrəmov), "Göyçək Fatma", "Karvan" (N.Məmmədov), "Güzgü" (E.Axundov), "Söhbətül-əsmar" (E.Hami), "Şüəla" (T.Piriyev) və başqaları balaca tamaşaçıların marağını cəlb etmiş, onların estetik zövqünün və dünyagörüşünün zənginləşməsində rol oynamışdı. "Cırtdan və sehrli xalat" (3D formatda), "İt sərgisi", "Cəsur təyyarə", "Pozulmuş sülh" cizgi filmləri son dövrlərin ekran işləridir.

## Yubiley tədbirlərinin keçirilməsi



Müasir dünyada uşaqların maraq dünyasına aid olan bir çox əlamətdar tarixi günlər qeyd edilir. Hər il belə əlamətdar tarixi günlərin keçirilməsi demək olar ki, bir ənənəyə çevrilib. Respublikamızın hər bir təhsil ocaqlarında, elm və mədəniyyət sahələrində, eləcə də F. Köçərli adına Respublika Uşaq Kitabxanasında bu

günlərin ən maraqlısı olan cizgi filmləri gününün keçirilməsi nəzərdə tutulmuşdur.

**Nağıllarımızla cizgi filmlərimiz arasında əlaqə**

Uşaqlar dünyaya nağıllardan boylanar, nağıldan nağıla buğda boyda böyüyərlər. Onlar üçün nağıl aləmində heç bir şərtilik, heç bir uydurma, heç bir yalan-filan yoxdur: hər şey həqiqətdir, realdır; dəniz kimi realdır, dənizdə üzən gəmilər kimi realdır, torpaq kimi, torpaqda bitən ağaclar kimi realdır. Nağıllarda gerçəkliklə fantastika, fantastika ilə gerçəklik arasında cəmi iynəyarım yol var. Nağıllar xalqın uşaqlığıdır. Hər bir xalq öz nağıllarında güzgülənib özünü tanıyır. Nağıl xalqın mədəniyyətə vəsiqəsidir. Bu vəsiqəni hər bir insan hələ uşaq ikən öz anasından alır. Bir xalqı özün üçün "kəşf etmək" istəyirsənsə, onun adətlərini görmək, dilini öyrənmək istəyirsənsə, həmin xalqın nağıllarını oxu. Bizim Azərbaycan nağılları əsasında çəkilən cizgi filmlərimiz həm uşaqlar, həm böyüklər tərəfindən sevilərək izlənilir. Uşaq aləmini dərk etmək cizgi filmini çəkən rejissordan fitri istedad, şifahi xalq yaradıcılığının janrlarını, canlı xalq danışıq dilini, onun ifadə imkanlarını bilməklə yanaşı, həm də uşaq aləmini, onun iç dünyasını duymağı, əsaslı öyrənməyi tələb edir. Uşaqların maraq dairəsini, estetik zövqünü öyrənmədən onları konkret məqsədə doğru yönəltmək, fərdi meyllərini inkişaf etdirmək də olmaz. Odur ki, uşaqlar üçün çəkilən cizgi filmləri onların yaş səviyyəsinə münasib olan üslubda çəkilməlidir. Uşaqlar üçün yazılmış əsərlər əsasında çəkilmiş cizgi filmlərinə baxdıqda, məzmun və formasına (yığcamlıq, lakoniklik, fikir aydınlığı,

cümlələrin kompaktlığı, sintatik quruluşu, ana dilinin imkanlarından yetərincə yararlanma və s.) nəzər saldıqda bu sahədə əməyi olan mütəxəssislərin uşaqların psixologiyasını, onların yaşına uyğun davranışını bu sahənin mütəxəssisi kimi bildiyi qənaətinə gəlirik. Bu nağıllar əsasında çəkilən cizgi filmlərində uşaqların yaşadığı ictimai mühit, onların inkişafı, idrakı, zövqü, nitq qabiliyyəti, mədəni davranış qaydalarına yiyələnməsi, bilik və maraq dairəsi də diqqət mərkəzində olmalıdır. Bu münasibətlə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda "Cizgi Filmləri həftəsi" adı altında tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Beynəlxalq Cizgi Filmləri Günü münasibətilə kitabxanada "Cizgi filmlərinin sehrli dünyası" adlı sərgi təşkil etmək olar. Tədbirdə milli, sovet və Disney cizgi filmlərinin qəhrəmanlarının şəkilləri, disklər, cizgi filmləri haqqında kitab və broşuralar nümayiş olunur. Daha sonra milli cizgi filmlərinin nümayişini keçirmək məqsədəuyğundur. Bu təbdbir bir həftə davam edə bilər. Öncə kitabxanaçı cizgi filmlərinin, daha sonra isə milli cizgi filmlərimizin yaranma və inkişaf tarixi haqqında qısaca məlumat verir. Məsələn:



**“Nağıllarımız və cizgi filmlərimiz”**

## I kitab Könlüm Qarabağdadır

Yazıçı : Teymur Elçin




“Könlüm Qarabağdadır” kitabında Azərbaycan uşaq ədəbiyyatının istedadlı nümayəndələrindən olan Teymur Elçinin uşaqların müxtəlif yaş dövrləri üçün nəzərdə tutulmuş əsərləri toplanmışdır. Uşaq şeirləri, cizgi filmi üçün yazılmış ssenari, nəğmələr, tapmacalar, yanıltmaclar və başqa bu kimi janrları əhatə edən örnəklər kitabda konkret başlıqlar altında sistemləşdirilmiş, folklordan müxtəlif istiqamətlərdə bəhrələnmə yolu ilə yaradılan nümunələrə xüsusilə diqqət yetirilmişdir. Klassiklər səviyyəsinə yüksəlmiş şairin əsərləri xalq ədəbiyyatı ilə qırılmaz tellərlə bağlıdır. Şair folklordan – xüsusilə nağıllardan, laylalardan, tapmaca və yanıltmaclardan ustalıqla istifadə edərək həmin janrlarda çoxlu əsərlər yaradıb.

**II kitab "Azərbaycan animasiyası" –**




Azərbaycanın animasiya tarixinə həsr olunan kitabdır. Bu kitabın siqnal nüsxəsi 2017-ci ildə Praqada təqdim olunub, 2018-ci ildə isə Bakıda çapdan çıxıb. Kitabın ilk rəsmi təqdimatı I Animafilm Festivalında baş tutub. Azərbaycan və Avropa kinoşünaslarının səyi və tədqiqatları nəticəsində oxucular Azərbaycanda incəsənətin bu növünün inkişafı barədə çox sayda yeni məlumatlar əldə ediblər. Kitabda animasiya sahəsində çalışan rejissor və rəssamların təqdim etdiyi unikal materiallar ilk dəfə çap edilib. Bu kitab bir ildən çox davam edən kollektiv tədqiqatların nəticəsidir. 13 Azərbaycan və Avropa kinoşunası 19 məqalə hazırlamışlar. Kitab iki dildədir: hər bir fəsli azərbaycan və rus dillərində oxumaq olur. Kitabın yazılmasında rejissorlar və cizgi filmi rəssamlarının əvəzsiz rolu var. Onlar məqalələrin müəlliflərinə öz yaradıcılıq fəaliyyətləri və istehsalın texniki təfərrüatları barədə məlumat vermiş, həmçinin bəzilərinin ilk dəfə işıq üzü gördüyü qiymətli materiallar təqdim etmişlər.

"Azərbaycan animasiyası" kitabı tək Azərbaycanda deyil, başqa ölkələrdə də yaşayan insanların dəstəyi ilə ikiillik kraudfandinq kampaniyasının nəticəsi olaraq çap edilib. Kitabın layihəsini maddi cəhətdən 100-dən artıq insan dəstəkləyib.

İdeya müəllifi, tərtibatçı, məsul redaktor: Rəşid Ağamalıyev
Müəlliflər: Aydın Kazımzadə, Sevinc Əzimova, Rəşid Ağamalıyev, Gennadi Tişşenko, Karolina Çijkova, Aygün Aslanova, Aliyə Dadaşova, Andrey Hovanets, Kəmalə Rzayeva, Dadaş Məmmədov, Elçin Orucov, Leyla Novruzi, Olqa Ağamalıyeva
Baş məsləhətçi: Elçin Hami Axundov
Məsləhətçilər: Firəngiz Qurbanova, Şamil Nəcəfzadə, Məsud Pənahi, Vahid Talıbov, Arif Məhərrəmov, Gennadi Tişşenko, Ramiz Ağayev, Rafiz İsmayılov, Yefim Abramov
Üz qabığının rəssamı: Andrea Feytkova
Fotoqraf: Ceremi Moraxan
Şəkillərin bərpası: Kəbirə Həşimova
Kompüter tərtibçisi: Faiq Əliyev
Naşir: "PERİ FİLM" MMC, 2018-ci il

**III kitab Tülkü həccə gedir**




Kitabda hikmətli bir əhvalatdan- qocalıb əldən düşmüş tülkünün özünə yem tapması üçün fikirləşib necə yeni fənd işlətməsindən danışılır. Kitabda belə bir fikir ön plana çəkilmişdir: düşmən çox məharətlə cildini dəyişir. O gücü hesabına deyil, hiylə və ikiüzlülük sayəsində öz alçaq məqsədinə nail ola bilər. Uşaq yazıçısı Abdulla Şaiqin eyniadlı nağılı əsasında applikasiya filmi ekranlaşdırılmışdır. Film geniş tamaşaçı kütləsi üçün nəzərdə tutlmuşdur.










**Sərgi ətrafında oxucularla söhbət**

**Metodist:** 1969-cu ildə fevralın 28-də “Cırtdan” adlı xalq nağılının motivləri əsasında eyni adlı cizgi filminin istehsalına başlanılır. Bu, birhissəli rəngli cizgi filminin ssenarisini Alla Axundova yazmışdı. 1970-ci ildə Nazim Məmmdov S. Ə. Şirvaninin əsəri əsasında “Ayı və siçan” adlı filmini çəkir. Bu “Azərbaycanfilm”də cizgi filmlərin sexinin bərpasından sonra çəkilmiş birinci tamamlanmış film idi. 1970-ci ildə ekranlara buraxılan film uşaqlarla yanaşı, həm də böyüklərin duyulası marağına səbəb olur. Elə bu filmlə Azərbaycanda multiplikasiyanın əsası qoyulur. “Ayı və siçan”-ın istehsalı ilə Azərbaycanda cizgi filmləri tarixinin ikinci dövrü başlanır. Nazim Məmmədov həm filmin quruluşçu rejissoru və rəssamı, həm də multiplikatoru idi.

Filmin ssenarisini görkəmli Azərbaycan şairi Seyid Əzim Şirvaninin eyni adlı təmsili təşkil edirdi. Filmin xeyirxahlığı və yaxşılığın unudulmamasından bəhs edən ana xəttini qabardan rəssam bu yüksək məziyyəti rəsmlərin ovqat doğurucu gücü və obrazların dinamik-ritmlər hərəkətləri ilə göstərməyə nail olmuşdu. "Cırtdanın yeni sərgüzəşti" filmi (1973, rej. N.Məmmədov və B.Əliyev) kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Filmdə xalq folklorunun fantastik motivləri ilə müasirlik üzvi şəkildə bir-birinə bağlanmışdır. "Şahzadə - qara qızıl" film-nağılı (1974, rej. N.Məmmədov və B.Əliyev) poetik formada insanın yerin altından, dənizin dibindən qara qızıl çıxarmasından söhbət açırdı. "Günlərin bir günündə" (1975), "Dınqıl sazım, dınqıl" (1976), "Pəncə...Qulaq...Palaz...Tikan" (1976) cizgi filmlərində (rej. M.Pənahi) ibrətamiz məsələlərə toxunulur. "Şah və xidmətçi" filminin də (1976, rej. N.Məmmədov) əsasını N.Gəncəvinin əsərinin motivləri təşkil edir. Burada Azərbaycan oxucusuna çox yaxşı məlum olan sədaqətli nökər və amansız, qəddar şahın əhvalatı ekranda canlandırılmışdır. "Toplan və kölgəsi" (1977), "Sonrakı peşmançılıq" (1978) və "Sehrlənmiş küpə" (1979) cizgi və applikasiya filmlərində də (rej. N.Məmmədov) xeyirxah, nəcib olmağın vacibliyindən, əməksevərlikdən, böyüklərə hörmətdən və digər insani keyfiyyətlərdən danışılır. "Qız qalası əfsanəsi" cizgi filmi (1978) adından göründüyü kimi Azərbaycan xalq əfsanəsinin motivləri əsasında yaradılmışdır. 80-ci illərdə kinostudiyada 38 adda cizgi filmi istehsal olunmuşdur. Bunlardan "Cücələrim", "Meşəyə insan gəlir", "Sehrli ağac", "Taya", "Dəcəl dovşan", "Sandıq", "Sən belə cumbulusan", "Sehrli ləçək ", "Uçan zürafə", "Qəribə əjdaha", "Təqib", "Yatmaq

vaxtıdır”, “Balaca çoban”, “Humayın yuxusu”, “Sakit Yonun macəraları”, “Ana ağaca qonub” və s. cizgi, “Xeyir və Şər”, “Cırtdan-Pəhləvan”, “Uşaq və külək”, “Akvarium”, “Cırtdan və div”, “Yeni il əhvalatı”, “Sehrli naxışlar” applikasiya üsulu ilə çəkilmişdir.

Cizgi filmləri günü münasibətilə kitabxananın nağıl otağında uşaqların ifasında Əli Səmədlinin **İki kitab hekayəsi səhnələşdirilir**. Əvvəlcə metodist uşaqlara cizgi filmlərinin yaranma tarixi haqqında ətraflı məlumat verir.

## Əli Səmədli. İki kitab



Məktəb kitabxanasında çoxlu kitablar var idi. Bunların ancaq birindən sizə söz açacağam. Bu, “Azərbaycan nağılları” kitabı idi. Bu kitabdan iki dənə idi. Eyni ildə buraxılmasına baxmayaraq, biri təptəzə qalmışdı. O birinin isə əzilib sökülmüş vərəqləri cildin arasında zorla dayanırdı. Bu ki tab təzə kitabın yanında dayanmağa belə utanırdı. Heç bunu təzə kitab da istəmirdi. Ona rişxəndlə baxıb tez-tez deyirdi:

– Bir bunun qopub tökülmüş, cırılmış vərəqlərinə bax. Elə bil yüz ilin kitabıdır. Heç yüz ilin kitabı da belə cındır olmur, əl-əl gəzir. Kim səni bu günə salıb?

Əzik kitab inildəyə-inildəyə:

– Məni on iki uşaq aparıb oxuyub, on iki.

Təzə kitab:

– Eh, çox da lovğalanma, – dedi. Məni otuz beş şagird aparıb oxuyub.

Əzik kitab yenə yazıq-yazıq dedi:

- Eh, görünür, sən beşincilərin əlinə düşməmisən. Həmin sinifdə Kamillə Samirin əlinə düşsəydin, məndən də pis günə qalardın. Onların hərəsinin evində mən bir ay qalmışam. Məni hey ordan bura atırdılar, burdan da ora.
Ona görə bu günə qalmışam.

Təzə kitab:

- Görünür, beşincilərin kitabsevərlər dərnəyi yoxdur. Əgər olsaydı, onlar bilərdilər ki, biz kitablar dünyanın ən böyük sərvətiyik. Eyib etməz. Bax sən keç lap birinci cərgədə dur. Uşaqlar bu gün gəlib kitabxanadakı cırılmış kitabları təmir edəcəklər. Qoy səni də görüb, götürsünlər.

Doğrudan da, səhəri gün məktəbin kitabsevərləri kitabxananın cırılmış kitablarını təmir etməyə başladılar. Əzilib vərəqləri tökülmüş “Azərbaycan nağılları” kitabı da onların arasındaydı. Qızlardan biri onu əlinə götürən kimi dedi:

- Bu ki keçən il buraxılan kitabdır. Bunu bu vəziyyətə, görəsən, kim salıb?

Söhbətə kitabxanaçı Solmaz müəllimə gəlib çıxdı. Kitaba baxan kimi dedi:

Bu ancaq beşincilərin işidir. Onlardan bir nəfər də kitabsevərlər dərnəyinin üzvü deyildir.

Bir həftədən sonra kitab təmir edənlər arasında beşincilər də vardı.
Sonda uşaqlar nağıl otağında Azərbaycan cizgi filmlərinə tamaşa edirlər.
https://azerbaijan.az/multifilms

https://www.youtube.com/watch?v=ApSF0_w8R6M

https://www.youtube.com/watch?v=KCpiJXU-P84

https://www.youtube.com/watch?v=yGtW8lVAqT4ANİMC

https://www.youtube.com/watch?v=HnA2hC2NEhg

**Konfrans:**

Kitabxanalarda məktəblilərin iştirakı ilə **“Uşaqların inkişafında cizgi filmlərinin rolu”** adlı oxucu konfransı da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların; rejissorların, psixoloqların, uşaq ədəbiyyatı sahəsində çalışan mütəxəssislərin, bağça və məktəb müəllimlərinin, metodistlərin və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur.

Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Cizgi filmlərinin yaranma tarixi ilə bağlı məruzə)
2. Son vaxtlar çəkilən cizgi filmləri haqqında məlumat
3.Uşaqlarımız cizgi filmlərində ən çox cəlb edən mövzular
4. Ən çox sevilən cizgi filmi qəhrəmanı
5. Nağıllarımız əsasında çəkilən cizgi filmlərinin üstünlüyü
4. Konfransın yekunu.



Metodist: Dünya Cizgi Filmi günü 2002-ci ildə Beynəlxalq Animasiya Filmləri Dərnəyi tərəfindən təsis edildi. 1906-cı ilin aprelin 6-da Con Stuart Blekton və Albert Smit Amerikanın kinoteatr birliyi ilə Vitage təsisçiləri ilk cizgi filmləri "Gülməli üzlərin gülməli mərhələləri" adlı film çəkmişdir. Bunlar animasiya tarixində ilk cizgi filmləri idi. Dünya Cizgi Film Gününü qeyd etmək fikri yalnız 2002-ci ildə yaranmışdır və həmin gündən dünyanın bir çox ölkələrində qeyd olunur. Beynəlxalq Cizgi Filmləri Günü öncəsi dünyanın hər yerindən animasiya kinosu peşəkarları və həvəskarları öz filmlərinin proqramlarını bir-birləri ilə bölüşür və bu hadisəni bütün il gözləyən tamaşaçılar üçün əsərlərinin ilk nümayişini göstərirlər. Cizgi filmlərinin belə seansları artıq dünyanın 104 ölkəsində keçirilir.

**Psixoloq:**Ölkəmizdə bəzi televiziya kanalları uşaqlar evdə darıxmasın deyə sevilən cizgi filmləri ilə onların görüşünə gəlirlər. Uşaqların həyatında və psixoloji inkişafında cizgi filmlərinin böyük rolu olduğu danılmaz faktdır. Ona görə də cizgi filmlərinin psixo-pedaqoji mahiyyətini bilmək vacibdir. Psixoloqların fikrincə, düzgün seçilən cizgi filmləri uşaqların inkişafına müsbət təsir edir. Valideynlər uşaqların izləməsi üçün cizgi filmi seçərkən ehtiyatlı olmalı, bəzi vacib məqamlara diqqət yetirməlidir. Əslində hər bir cizgi filminin konkret süjeti olmalıdır. Cizgi filmləri uşağın psixologiyasına mənfi təsir göstərməməli, onu sakitləşdirməli və maarifləndirməlidir, mənasız dinamik hərəkətlər əvəzinə öyrədici və tərbiyəedici süjetlər olmalıdır. Əlbəttə ki, uşaqların bilik və dünyagörüşünün artırılmasına xidmət edən kifayət qədər cizgi filmləri var. Ata-analar faydalı cizgi filmlərini seçərək övladlarının onlara tamaşa etməsinə

çalışmalıdır. Cizgi filmləri aqressiya və zorakılığı deyil, mehribanlıq, humanistlik və səmimiyyət təbliğ etməlidir. Uşaqların cizgi filmlərini izləmək müddətinin onların yaşına uyğun olması barədə psixoloqların mövqeləri var. Uşaqların film izləmə müddəti yaşa görə müxtəlifdir və valideynlər bunu mütləq nəzərə almalıdır. 3 yaşa qədər uşaqlar televiziyada nümayiş olunan cizgi filmlərinə çox az baxa bilər – cəmi 20-30 dəqiqə olmaqla gündə iki və ya üç dəfə. Həmin yaş dövründə uşaq televizora hər dəfə 10 dəqiqədən çox baxmamalıdır. 4 yaşında uşaqların televiziya ekranını izləmə müddəti 30-40 dəqiqə olmalı, gündə üç və ya dörd dəfə və hər dəfə 10 dəqiqəni ötməməlidir. 5 yaşı olan uşaqlar 1 saat televizora baxa bilər. Onlar hər dəfə 20 dəqiqə olmaqla gün ərzində üç dəfə ekran qarşısında əyləşə bilər. 6 yaşında uşaq 1 saat – 1 saat 30 dəqiqə ərzində televiziya ekranında nümayiş olunan cizgi filminə tamaşa edə bilər, lakin gündə iki və ya üç dəfə 30 dəqiqədən artıq olmamaq şərti ilə animasiya filmlərinə baxa bilər. Sonrakı illərdə uşaqlar tədricən 2 saata qədər "mavi güzgünü" izləyə bilərlər. Yaxşı olar ki, uşaq televizora baxarkən valideynlərdən biri onunla bərabər verilişə baxıb nəyin baş verdiyini ona başa salsın.



## *Oxucularla görüş: Azərbaycanda cizgi filmlərinin yaranma tarixi*

Cizgi filmləri günü münasibətilə kitabxanada oxucularla görüş keçirib, bu mövzuda onlarla söhbət edib, diskusiyalar təşkil etmək olar. Bunun üçün metodist əvvəlcədən bu mövzuda kitabxananın fondundan dəyərli məlumatlar toplayıb, əldə etdiyi materialları oxucularla bölüşür. Əvvəlcə iştirakçılara cizgi filmlərinin yaranma tarixindən bəhs edən slayd təqdim olunur.

Azərbaycanda cizgi film yaratmaq istəyi və bu istəyin həyata keçirilməsi XX əsrin 30-cu illərinə aid edilir. "Azərbaycanfilm" studiyası bu işdə xüsusi səy gösrtərmiş, lazım olan texniki avadanlıqları Moskvadan alıb gətirmişdir. "Lökbatan" və "Neft simfoniyası" (rej. B.Pumpyanski) sənədli filmlərinin çəkilişi zamanı texniki animasiyadan istifadə edilmiş, "Cat" təlimat filmində isə (rəs. Basov) animasiyadan bütünlüklə istifadə olunmuşdur. Film

ümumittifaq ekranlarında 1938-ci ilə qədər nümayiş etdirilmişdir. Bu film kinostudiya işçiləri üçün stimul rolunu oynadı və bir qrup təşəbbüskar da cizgi filmi yaratmaq qərarına gəldi. Cizgi filmlərinin mövzusu xalq nağıllarından götürülürdü. A.Papov tərəfindən “Abbasın bədbəxtliyi” adlı ssenari yazıldı və filmin operatoru Q.Yegiazarov, rejissoru E.Dikaryov oldu. Filmdə nümayiş olunan rəsmlər isə Q.Xalıqov, C.Zeynalov, M.Maqomayev və Ə.Mirzəyevə məxsus idi.

https://portal.azertag.az/az/taxonomy/term/29?page=8

Böyük Vətən müharibəsi başlamamışdan bir qədər əvvəl studiyada “Sindbad dəniz səyyahıdır” adlı ikinci cizgi filminin çəkilişlərinə hazırlıq görülürdü. Bu, səsli film olmalı idi. Lakin təəssüf ki, müharibənin başlanması ilə əlaqədar işlər yarımçıq qaldı. 60-cı illərin sonlarında kinostudiyada cizgi filmlərinin çəkilişi üçün şərait yaradıldı. Cizgi filmlərinin çəkilişi üçün 20 nəfərdən ibarət rəssamlar qrupu yaradılmış, bu sənətin sirrlərini öyrənmək üçün studiyada xüsusi kurslar açılmışdır. C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında 1968-ci ildə cizgi filmləri sexi bərpa olundu. Direktor Ə.İsgəndərov sexin istifadəyə verilməsinə və cizgi filmləri üzrə kadrların hazırlanmasına, eyni zamanda cizgi filmlərinin istehsalı prosesinə xüsusi diqqət yetirirdi.



Nəhayət, 1969-cu il fevralın 28-də “Cırtdan” adlı xalq nağılının motivləri əsasında eyni adlı cizgi filmin istehsalı başa çatdırıldı. Kinostudiyanın cizgi filmləri sexinin bərpasından sonra çəkilmiş birinci film “Cırtdan” oldu. Film 1969-cu ildə ekranlara buraxıldı və uzun müddət kinoteatrlarımızın ekranlarında oldu. Beləliklə, “Cırtdan”ın istehsalı ilə Azərbaycanda cizgi filmləri tarixinin ikinci dövrü başlandı. 70-ci illərdə kinostudiyanın cizgi filmləri şöbəsində 20-dən artıq cizgi filmi istehsal olunmuşdur. 1971-ci ildə A.Şaiqin eyniadlı əsəri əsasında “Tülkü həccə gedir” (rej. N.Məmədov, B. Əliyev) cizgi filmi çəkildi. Bu cizgi filmi istər üslub, istərsə də sənətkarlıq baxımından ən maraqlı işlərdən biridir. “Çaqqal oğlu çaqqal” kukla filmi (1972, rej. M.Rəfiyev) ilk və yeganə genişekranlı Azərbaycan cizgi filmidir.

80-ci illərdə kinostudiyada 38 adda cizgi filmi istehsal olunmuşdur.



Azərbaycan cizgi filmləri bədii keyfiyyət baxımdan eyni səviyyədə deyildi. Bunun bir neçə səbəbi var idi: birincisi kadrların hazırlığı, peşəkarlığı, ikincisi isə texniki avadanlığın, xüsusilə boyaların kasadlığı ilə əlaqədar idi.

80-ci illərin sonunda ölkədə gedən ictimai-siyasi proseslər, bunların bütün sahələrə, o cümlədən yaradıcı təşkilatlara təsiri, "Azərbaycanfilm"in yeni iş üsuluna keçməsi ilə əlaqədar yollar axtarması kinostudiya nəzdindəki birlik və şöbələrin müstəqil fəaliyyət görsətməsinə təkan verdi.



1990-cı ilin aprel ayında Sovet İttifaqında ilk dəfə olaraq Azərbaycan multiplikatorları təsərrüfatın icarə formasına keçdilər. Multiplikasiya sexinin adı da dəyişdirilib, “Azanfilm” Yaradıcılıq-İstehsalat Birliyi oldu. “Azanfilm” – Azərbaycan animasiya filmləri deməkdir. 90-cı illərdə “Azanfilm” markası altında 19 cizgi filmi çəkilmişdir. 1993-cü ildə Bakıda Azərbaycan filmlərinin II festival-müsabiqəsi keçirilmiş, bu festivalda ən yaxşı cizgi filminə görə rejissor V.Talıbova priz və diplom verilmişdir.

**Cizgi filmlərindən bəhs edən biblioqrafik icmal, müzakirə**

**Animasiya, cizgi, animasiya kinosu və ya cizgi filmi – incəsənətin bir növü**

Onun əsərləri kağız üzərində və ya kompyüterdə çəkilmiş şəkillərin hərəkətə gətirilməsi nəticəsində yaranır. Tom və cery Maşa və Ayı (cizgi filmi)

Kino sənətinin əsas növlərindən biri də animasiya kinosudur. Bu növ uşaqlar üçün nəzərdə tutulmuşdur. Ona multiplikasiya kinosu da deyilir. Animasiya kinosu yeni multipkasiya filmləri rəsmli, yaxud həcmli obyektləri müəyyən fazalarla hərəkət etdirib onların bu hərəkətini ardıcıl lentə almaqla yaranır. Animasiya kinosunda fantastika, bədii uydurma mühüm yer tutduğuna görə tədqiqatçılar bəzən onu təsviri sənət növlərinə daha yaxın hesab edir və ya kinematoqrafiya texnikasından istifadə edən müstəqil sənət sayılır. Gerçəkliyin əks etdirmənin xüsusi bədii şərtilik forması olan qrafik animasiya fantastik hadisə və əhvalatların təsviri üçün özünə məxsus ifadə vasitələrinə

malikdir. Əhvalatı göstərmək cəhətdən qrafik animasiya ilə ayaqlaşa bilməyən həcmli animasiyada personajların təsviri xarakteristikası daha dolğun olur.

Elektronikaya və kibernetik maşınların tətbiqinə əsaslanan animasiya filmləri də vardır ki, onlara kompüter animasiyası deyilir. Bu cür filmlər hazırda çox geniş yayılmışdır və sürətlə inkişaf etməkdədir. Animasiya rejissorları son zamanlar cəsarətlə öz filmlərinə bədii və sənədli kadr daxil edir, kinonun müxtəlif növlərinin imkanlarından bəhrələnir və bir növ "hibrid" formaları yaradırlar.

**Tarixi**

Animasiyanın yaranma tarixi Emil Reyno ilə bağlıdır. Fransız Emil Reyno ilk və əsl animator hesab olunur. O ilk dəfə baraban, güzgü sistemi və fənərdən ibarət optik cihaz yaradır. Bu optik cihazın adı "praksinoskop" adlanır. 1892-ci ildə isə o, özünəməxsus attraksiya olan "optik teatr" yaradır. Burada o, tamaşaçılara 15-20 dəqiqəyədək davam edən komik süjetlər təqdim edirdi. Bu hadisə Parisli Lümyer qardaşların premyerasından əvvəl baş verdiyi üçün, fransızlar animasiya ilə kinofilmdən daha əvvəl tanış olmuşlar.

İlk animasiyalar əl ilə çəkilib rənglənmiş, 15 dəqiqəyədək davam edən pandomimlər idi. Reyno rəsmlərlə yanaşı, fotoşəkillərdən istifadə edərək də animasiya filmləri çəkirdi.

İlk animasiya filmi 1906-cı ildə amerikalı karikaturaçı və animator Uinzor Makkey tərəfindən yaradılıb. O bir çox komik zolağının (A Tale of the Jungle Imps by Felix Fiddle, Sister's Little Sister's Beau, Phurious Phinish of

Phoolish Philipe's Phunny Phrolics və s.) və səssiz cizgi filmlərinin (Gertie the Dinosaur, Gertie on Tour The Pet, The Flying House və s.) yaradıcısıdır. Digər tərəfdən isə animasiya sahəsində ilk çevriliş amerikalı rejissor, prodüser və animator Uolt Disneyə məxsusdur. O ilk dəfə animasiya layihələrində səs və rəngdən istifadə etdi. Onun yaratdığı və ən çox tanınan personajlarindan biri də Mikki Maus-dur. Bu personaj rol aldığı bütün animasiya filmlərində kiçikdən böyüyə - bütün auditoriyanın qəlblərini fəth etmişdir. Disney studiyası bu layihəsinə görə 12 "Oskar" mükafatına layiq görülüb. Müasir həyatımızda inkişaf edən texnika ilə animasiya yaratmaq daha da asan bir hala çevrildi. Belə ki, animasiya artıq kompüterdə müxtəlif proqramlar ilə hazırlanır və 2D, 3D, stop-motion və cut-out kimi növləri vardır. 1917-ci il 26 sentyabr günü tarixdə ilk tammetrajlı cizgi filmi çəkilib. “Həvari” adlanan cizgi filminin rejissoru argentinalı Kvirino Kristiani idi. 69 dəqiqəlik filmin yeganə nümunəsi 1926-cı ildə yandığı üçün günümüzə gəlib çatmayıb.

Bəs cizgi filminin tarixi hardan başlayır?

Kino sənətinin əsas növlərindən biri də cizgi filmləri, başqa sözlə animasiya (canlanma) kinosudur. Ona multiplikasiya kinosu da deyilir. Animasiya kinosu yeni multiplikasiya filmləri rəsmli, yaxud həcmli obyektləri müəyyən fazalarla hərəkət etdirib onların bu hərəkətini ardıcıl lentə almaqla yaranır. Animasiya kinosunda fantastika, bədii uydurma mühüm yer tutduğuna görə tədqiqatçılar bəzən onu təsviri sənət növlərinə daha yaxın hesab edir və ya kinematoqrafiya

texnikasından istifadə edən müstəqil sənət sayılır. Animasiya sahəsində də kibernetik maşınların tətbiqinə geniş yer verilib. Onlara kompüter animasiyası deyilir. Bu cür filmlər hazırda çox geniş yayılıb və sürətlə inkişaf etməkdədir. Şəkildə hərəkəti göstərmək cəhdləri hələ qədim dövrlərdən olub. İlk primitiv multiplikasiyalar isə XIX əsrin birinci yarısından meydana gəlməyə başlayıb. Belçika fiziki Jozef Platonun, Avtstriya professoru Simon-fon Ştampfer və başqa ixtiraçı ekranda hərəkət edən şəkilləri göstərmək üçün fırlanan disk, şəkilli lentlərdən, işıq üçün fonardan istifadə edirdilər. Bu texnologiyanın inkişafı kinematoqrafiyanın yaranmasına gətirib çıxardı.

## Kitabxanada Animasiya sahəsində təcrübəsi olan mütəxəssislərlə görüş

**Cizgi filləri ilə bağlı uşaq kitabxanalarında bu mövzuda qələmə alınmış kitabların müzakirəsinin keçirilməsi də məqsədəuyğundur.** Bu məqsədlə kitabxanaya Bakı Dövlət Universitetinin tarix fakültəsi məzunu, modernizm sosiologiyası üzrə tədqiqatçı, "Modernizm əsri və insan", "Entropik dünya" kitablarının müəllifi Sübhan Padarsoy dəvət olunur. Müəllif bu mövzuda qələmə aldığı kitablar, məqalələr əsasında tələbələrə, məktəblilərə məlumat verir: **Müəllif:** Sosiallaşma prosesində və onun nəticəsində şəxsin qazandığı bilik, təcrübə və bacarıqlar onun cəmiyyətə inteqrasiyasında, cəmiyyətin əxlaq normaları və qanunlarını dərk etmələrinə yardım edən faktordur. Sosiallaşmanın bütün həyat boyu davam etməsi faktına rəğmən, həyatın ilkin uşaqlıq mərhələsində uşağın genetik və bio-psixoloji

xüsusiyyətlərinə görə bu daha mühüm prosesdir. Sosiallaşma ailə, məktəb, dini prinsiplər tərəfindən reallaşdırılır. Lakin modern sosiallaşma prosesində televiziya, sosial şəbəkələr və müəyyən ideyaların yayılmasında və audio-vizual transmissiyasında ən effektiv vasitələrdir. Cizgi filmləri televiziyanın effektiv alətləri arasında xüsusi yer tutur. Onlar uşaqların dünyanı qavrama tərzləri, böyüməsləri və dəyərlər formalaşdırmaları üzərində ciddi təsirə malikdir. Miçiqan universitetinin professorları Kaila Bruks və Bred Buşman qeyd edirlər ki, öyrənmə həvəsi heç vaxt sönməyən uşaq vaxtının çox hissəsini məktəb və bağça kimi ənənəvi strukturlardan daha çox televiziyada keçirməklə öyrənir. Onlar bildirirlər ki, Amerikada 2-5 yaş arası uşaq həftədə 32, 6-11 yaş arası uşaq 28 saat cizgi film izləyirlər. 8-18 yaş arası uşaqların 71 faizinin separat televiziya sistemi mövcuddur. Onların aşkara çıxardığı digər bir fakt ondan ibarətdir ki, 7-12 yaş arası uşaqların 53 faizi valideyn nəzarəti olmadan televiziya izləyicisidir. Öyrənmə məsələsində uşaqların ənənəvi və akademik mənbələrdən daha çox cizgi filmlərinə meyillənməsinin başlıca səbəbi onlardakı audio-vizual effektlər, rəng solyusiyaları və ssenarilərdir. 2007-ci ildə Rusiyada məktəblərin birində şagirdlər və valideynlər arasında aparılan sorğu zamanı respondentlərin 56 faizi əcnəbi cizgi filmlərini, 14 faizi isə rus cizgi filmlərini üstün tutduqlarının bildiriblər. Habelə valideynlərin 33 faizi uşaqların cizgi film seçimlərinə məhdudiyyət qoyduqlarını, 67 faizi isə bu seçimə qarışmadıqlarını bildirib. Sovet erasının cizgi filmləri (Soyuzmutfilm) SSRİ və ondan kənarda xeyli populyar idi. Hətta SSRİ-in dağılmasından sonra da bu cizgi filmləri post-Sovet ölkələrində öz

populyarlığını qoruyub saxlayır. Lakin 2015-ci ildə Rusiyada Sovet cizgi filmlərinin bir hissəsi qeyri-adekvat həyat tərzlərinin propaqandasını özündə ehtiva etdiyi səbəbi ilə qadağan edildi. Bred Buşman qeyd edir ki, cizgi filmlərindəki zorakılıq səhnələri uşaqların onun effekti və nəticələrini dərk etməsində çətinliklər yaradır. Məsələn, qəhrəmanın başına düşən ağır bir obyekt izləyicini güldürür, çünki qəhrəman zərər görmür. Bunu izləyən uşağın zehnində fəaliyyət və onun nəticəsinin dərki arasında kəskin paroksizm baş qaldırır. Zorakılığa həddən çox məruz qalma uşaqların dünyanın təhlükəli bir yer olduğuna inanmalarına səbəb olur. Onlar zorakılığın qurbanı olacaqları ehtimallarını həddən ziyadə şişirtməklə daimi olaraq əndişə və stress yaşayırlar. Buşman qeyd edir ki, biz özündə zorakılığı ehtiva edən bir proqram izlədiyimiz zaman izlədiyimizin perseptual və koqnitiv təmsilini yaddaşımızda depolayırıq. Topladığımız yaddaşımıza oxşar real bir situasiyada olduğumuz zaman isə yaddaş və onun daşıdğı zorakılıq hekayələri aktivləşdiyi üçün aqressiv davranışlar ortaya çıxır. Müasir dövrdə film sənayemiz inkişaf edir, yerli serialların sayı günü-gündən artır, amma cizgi filmlərimiz hələ də barmaqla sayılacaq qədərdir. Sovet dövrü insanının rəngsiz, ağ-qara televizorda sevərək, doymadan izlədiyi iki cizgi filmi vardı: "Nu, poqodi" və "Kot Leopold". Dovşanın çevikliyi, gücü olmasa da hər çətinlikdən hiyləylə çıxma bacarığı, onu istənilən situasiyadan çıxış yolu olduğuna inandırıb. Leopoldun isə başına oyun açan siçanları hər dəfə bağışlamağı, barışmağa, mehriban olmağa səsləməyi ona mərhəmət hissinin aşılanmasında önəmli rol oynayırdı. Cizgi filmləri uşaqları həm əyləndirər, həm öyrədər, həm də xəyal dünyalarını qurar.

Dövlət maliyyə ayırır, il ərzində 3 cizgi filmi çəkilirsə, onun 1-i heç olmasa vətənpərvərlik mövzusunda olmalıdır. Bu gün internetin imkanları genişdir, biz ondan istifadə edib uşaqlarımıza daha keyfiyyətli animasiya filmləri təqdim edə bilərik.Sovet dövründə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası xeyli sayda milli cizgi filmləri istehsal edib. 90-cı illərdə "Azanfilm" markası altında 19 cizgi filmi çəkilib. Bunların arasında "Bir dəfə haradasa...", "İthaf", "Oda", "Sərkəyin dastanı", "Göyçək Fatma", "Karvan", "Güzgü", "Dəniz gəzintisi", "Ümid", "Söhbətül-əsmar " (rejissor: E.Hami), "Şüəla" maraqlı və baxımlı, ekranlaşdırılmalı olan əsərləridir. ***Bəstəkar Soltan Hacıbəyovun məşhur "Karvan" əsəri əsasında çəkilmiş "Karvan" cizgi filmi üç novelladan ibarətdir:*** birincisi qədim insan məskəni Qobustandan söhbət açır. İkinci novellada Şərq və qadın mövzusuna toxunulub. Üçüncü novella 20 Yanvar və Xocalı faciəsindən bəhs edir. Bu filmin ssenari müəllifi Vaqif Səmədoğludur. Sadəcə, biz onlardan yalnız bir neçəsini izləyə bilmişik. "Tıq-tıq xanım", "Tülkü Həccə gedir", "Cırtdan", "Qız qalası", "Meşəyə insan gəlir" və s. İnsanlar həmin cizgi filmlərini görməyib. Bəlkə televiziyalar da bundan xəbərsizdir. Azərbaycan kino sənayesinin tarixinə baxsaq xeyli sayda yerli istehsalın məhsulu cizgi filmlər qarşımıza çıxa bilər. Məsələn, AzTV-nin çox zəngin arxivi var. Yəni milli cizgi filmlərimiz heç də az deyil. Kifayət qədərdir, hətta xeyli saydadır. Dublyaja nə vaxt, nə də maliyyə sərf olunar, nə də yad ideologiyalar uşaqlarımızın beynini korlayar. Uşaqlarımız milli ruhda böyüyər, ana dilində cizgi filmi izləyər.

## Cizgi Film dünyası

Uşaq kitabxanasında Cizgi Filmlərinin yaranma günü ilə bağlı tədbir təşkil olunur. Tədbirə bu mövzuda fəaliyyət göstərən sahələrin mütəxəssisləri dəvət olunur. Tədbir təşkil olunan zalın divarları cizgi filmləri qəhrəmanlarının şəkilləri ilə bəzədilir. İştirakçılara ekranda cizgi filmlərinin yaranma tarixindən bəhs edən slayd təqdim olunur. Aparıcılar Azərbaycanın cizgi filmlərinin qəhrəmanlarının surətində səhnəyə çıxırlar.

**Cırtdan:** Kino janrlarından biri olan cizgi filmi kağız üzərində və ya kompyüterdə çəkilmiş şəkillərin hərəkətə gətirilməsidir. Azərbaycanda cizgi filmlərinin yaranması XX əsrin 30-cu illərinin əvvəllərindən başlayır. 1933-cü ildə "Azərbaycanfilm" studiyasının işçiləri kinonun bu növünün istehsalı üçün əvvəlcədən hazırlıq işləri aparmış, Moskvadan lazımi materialları gətirmişlər. Onlar həmin il "Lökbatan" və "Neft simfoniyası" (rejissoru B.Pumpyanski) sənədli filmlərini çəkərkən texniki animasiyadan istifadə etmişdilər. "Cat" təlimat filmində isə (rəssam Basov) animasiyadan bütünlüklə istifadə olunmuşdur. Bu film Azərbaycan cizgi filmləri istehsalında ilk iş kimi tarixə düşdü. Film ümumittifaq ekranlarında 1938-ci ilə qədər nümayiş etdirilmişdir. Məhz bu film ekranlara buraxılandan sonra kinostudiyada bir qrup təşəbbüskar ilk dəfə cizgi filmi yaratmağı qərara aldı.

**Göyçək Fatma:** Film üçün mövzu Azərbaycan xalq nağıllarından götürülmüşdür. Ssenarini A.Papov yazmışdır. "Abbasın bədbəxtliyi" adlanan bu ssenariyə rejissor

E.Dikaryov quruluş verdi. Rəsmləri rəssamlardan Q.Xalıqov, C.Zeynalov, M.Maqomayev və Ə.Mirzəyev çəkmişlər. Filmin operatoru Q.Yegiazarov olmuşdur. Bundan başqa, Böyük Vətən müharibəsi başlamamışdan bir qədər əvvəl studiyada ikinci cizgi filminin çəkilişlərinə hazırlıq işləri görülmüşdür. “Sindbad dəniz səyyahıdır” adlanan bu səsli film olmalı idi. Lakin müharibənin başlanması ilə əlaqədar işlər yarımçıq qaldı. Qeyd etmək lazımdır ki, bundan sonra da kinostudiyada yüzlərlə elmi-kütləvi və sənədli filmlərin çəkilişində cizgi rəsmlərindən istifadə edilmişdir. Bu filmlərin yaradılmasında rəssamlardan C.Zeynalov, M.Rəfiyev, A.Axundov, N.Məmmədov, B.Əliyev, quraşdırma çəkilişləri operatoru A.Milov iştirak etmişlər.

**Tıq-tıq xanım:** 60-cı illərin sonlarında kinostudiyada cizgi filmlərinin çəkilişi üçün şərait yaradıldı. Multfilmlərin çəkilişi üçün 20 nəfərdən ibarət rəssamlar qrupu yaradılmışdır. Multfilm sənətinin sirrlərini öyrənmək üçün studiyada xüsusi kurslar açılmışdır.1968-ci ildə C.Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında cizgi filmləri sexi bərpa olundu və istifadəyə verildi. Nəhayət, 1969-cu il fevralın 28-də “Cırtdan” adlı xalq nağılının motivləri əsasında eyni adlı cizgi filmin istehsalı başa çatdırıldı. “Cırtdan” kinostudiyanın cizgi filmləri sexinin bərpasından sonra çəkilmiş birinci film oldu. Film 1969-cu ildə ekranlara buraxıldı. Beləliklə, “Cırtdan”ın istehsalı ilə Azərbaycanda cizgi filmləri tarixində ikinci dövr başlandı.

**Siçan bəy:** 70-ci illərdə kinostudiyanın cizgi filmləri şöbəsində 20-dən artıq cizgi filmi istehsal olunmuşdur. 1970-ci ildə

multiplikatorlar kinonun bu növündə üç filmə ekran həyatı vermişdilər. Bunlardan ikisi “Ayı və siçan” (rejissor N.Məmmədov) və “Şir və öküz” (rejissor A.Axundov) mikrofilmlərdir. İkinci film o vaxt “Kaleydoskop-71” Ümumittifaq kinoalmanaxına daxil edilmişdir. Üçüncü – “Fitnə” (rejissor A.Axundov) rəngli applikasiya filmidir. Bu film isə dahi Azərbaycan şairi N.Gəncəvinin eyniadlı nağıl-novellasının motivləri əsasında çəkilmiş, təsvirin işlənməsi (rəssam E.Rzaquliyev) orta əsr Azərbaycan miniatür sənəti üslubunda həll olunmuşdur.

**Tülkü:** “Pıspısa xanım və Siçan bəy” (1974) və “Cücələrim” (1980) cizgi filmlərində (rejissor A.Axundov) orijinal plastik həllin axtarışları aydın nəzərə çarpır. 1971-ci ildə A.Şaiqin eyniadlı əsəri əsasında çəkilmiş “Tülkü həccə gedir” (rejissor N.Məmədov, B. Əliyev) cizgi filmi istər üslub, istərsə də sənətkarlığa görə ən maraqlı işlərdəndir. “Çaqqal oğlu çaqqal” kukla filmi (1972, rejissor M.Rəfiyev) ilk və yeganə genişekranlı Azərbaycan cizgi filmidir. Filmlərin yaradılması üzərində rəssam – multiplikatorların böyük qrupu işləmişdir. A.Axundov, N.Məmmədov və M.Rəfiyevdən başqa M.Pənahi, B.Əliyev, H.Əkbərov, F.Quliyeva, Ə.Məmmədov da kinostudiyada cizgi filmləri yaratmışlar. “Bulud niyə ağlayır” (1973, rejissor M.Pənahi) filminin mövzusu milli folklorumuzdan götürülmüşdür. Təsvirin həlli klassik şərq miniatürünə əsaslanır.

**Dovşan:** 1974-cü ildə Bakıda VII Ümumittifaq kinofestivalında animasiya filminə I mükafat verilmişdir. “Cırtdanın yeni sərgüzəşti” filmi (1973, rejissor N.Məmmədov

və B.Əliyev) kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Filmdə xalq folklorunun fantastik motivləri ilə müasirlik üzvi şəkildə bir-birinə bağlanmışdır. “Şah və xidmətçi” filminin də (1976, rejissor N.Məmmədov) əsasını N.Gəncəvinin əsərinin motivləri təşkil edir. 80-ci illərdə kinostudiyada 38 adda cizgi filmi istehsal olunmuşdur. Bunlardan “Cücələrim”, “Meşəyə insan gəlir”, “Sehrli ağac”, “Taya”, “Dəcəl dovşan”, “Sandıq”, “Sən belə cumbulusan”, “Sehrli ləçək”, “Akvarium”, “Cırtdan və div”, “Yeni il əhvalatı”, “Sehrli naxışlar” applikasiya üsulu ilə çəkilmişdir. 80-ci illərin əvvəllərində çəkilmiş “Cücələrim” adlı cizgi filmi (rejissor A.Axundov) tez bir zamanda populyar olmuşdur.

**Qırmızı papaq:** “Akvarium” applikasiya filmi (rəssam-rejissor F.Qurbanova) poetik filmdir. Burada quraşdırma çəkilişlərindən istifadə edilmişdir. Applikasiya personajları ilə yanaşı filmdə canlı oğlan da fəaliyyət göstərir. 1984-cü ildə Murmansk şəhərində (Rusiya) təbiətin mühafizəsi və onun ehtiyatlarından səmərəli istifadə edilməsi haqqında sənədli və elmi-kütləvi filmlərin II Ümumrusiya müsabiqəsində cizgi filminə münsiflər heyətinin diplomu və RSFSR Dövlət Kinematoqrafiya Komitəsinin Fəxri fərmanı verilmişdir. Kinostudiyada yarıqabarıq kukladan ilk dəfə “Münəccimin şagirdi” filmində (rejissor A.Məhərrəmov) istifadə olunmuşdur. Xalq nağılları əsasında yaradılmış bu filmdə asan yolla varlanmaq istəyən, acgözlük nəticəsində gülünc vəziyyətlərə düşən bir yeniyetmədən danışılır.

**Sindibad:**1990-cı ilin aprel ayında Sovet İttifaqında ilk dəfə olaraq Azərbaycan multiplikatorları təsərrüfatın icarə

formasına keçdilər. Multiplikasiya sexinin adı da dəyişdirilib, "Azanfilm" Yaradıcılıq-İstehsalat Birliyi oldu. "Azanfilm" – Azərbaycan animasiya filmləri deməkdir. Nə üçün multiplikasiya yox, məhz animasiya? Ona görə ki, bütün dünyada multiplikasiya (çoxalma) kimi kinematoqraf növü animasiya (canlandırma) adlandırılmışdır.
90-cı illərdə "Azanfilm" markası altında 19 cizgi filmi çəkilmişdir. Bunların arasında "Bir dəfə haradasa..." (rejissor V.Talıbov), "İthaf" (rejissor Ş. Nəcəfzadə), "Oda" (rejissor V.Talıbov, R.İsmayılov), "Sərkəyin dastanı" (rejissor A.Məhərrəmov), "Göyçək Fatma", "Karvan" (rejissor N.Məmmədov), "Güzgü", "Dəniz gəzintisi", "Ümid" (hamısı rejissor E.Axundov), "Söhbətül-əsmar " (rejissor E.Hami), "Şüəla" (T.Piriyev) maraqlı və baxımlı ekran əsərləridir.

**Kirpi:**1995-ci ildə Bakıda Azərbaycan filmlərinin III festival-müsabiqəsində ən yaxşı cizgi filminə görə rejissor diplom və prizlə təltif olunmuşdur. Bəstəkar Soltan Hacıbəyovun məşhur "Karvan" əsəri əsasında çəkilmiş "Karvan" cizgi filmi üç novelladan ibarətdir: birincisi qədim insan məskəni Qobustandan söhbət açır. İkinci novellada Şərq və qadın mövzusuna toxunulmuşdur. Üçüncü novella 20 Yanvar və Xocalı faciəsindən bəhs edir.
Cizgi filmi istehsalında ən son uğur kimi 2011-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin (MTN) dəstəyi 3D formatlı "Cırtdan və Təpəgöz"adlı cizgi filminin çəkilməsini göstərmək olar.

**Müdiriyyət:** Cizgi filmləri uşaqlara hər zaman müsbət təsir edirmi? Övladlarımızın düzgün təlim-tərbiyəsi, sağlam inkişafı, intellektuallığı və savadlığı hər birimiz üçün çox vacibdir. Uşaqların dünyagörüşünün formalaşmasına təsir edən faktorlardan biri də məhz cizgi filmləridir. Müəyyən yaş dövrü var ki, uşaqlar üçün bu filmlər daha aktual olur, çox izlənilir. Bəs cizgi filmləri övladlarımızın inkişafı üçün nə dərəcə əhəmiyyətlidir? Bəli, bütün uşaqlar cizgi filmlərini çox sevirlər. Xüsusən də müəyyən yaş dövrü var ki, o zamanlar bu tip filmlərə daha tələbkar olurlar. Cizgi filmlərinin uşaqlara təsiri isə inkaredilməzdir: "Cizgi filmləri və onların izlənməsinin həmişə müsbət nəticəsini görmək istəyiriksə, onda bir neçə mühüm şərtləri nəzərə alsaq daha yaxşı olar: uşağın yaşı, cizgi filminin hansı yaş üçün nəzərdə tutulması, bu filmlərin keyfiyyəti və məzmunu, bəzən valideynin də övladla birgə izləməsi. Uşağın yaşı çox önəmli məsələdir. Bir yaşa qədər ümumiyyətlə, baxılmamalıdır, 3 yaşa qədər uşaqlar təxminən 5-7 dəqiqə, 4-6 yaş arasında olduqda isə vaxt maksimum 20 dəqiqəyə qədər artırıla bilər. Bu zaman bir dəfəyə deyil, səhər və axşam saatlarını bərabər dəqiqələrə bölə bilərsiniz.

## Nağıl otağında uşaqlarla Azərbaycan cizgi filmləri mövzusunda oxucularla söhbət

Metodist nağıl otağında uşaqları qarşılayıb, Azərbaycan xalq nağılları əsasında çəkilmiş cizgi filmləri haqqında onlara ətraflı məlumat verir. Məlumat zamanı metodist həmin nağılların kitabları ilə də uşaqları tanış edir. Azərbaycan cizgi filmləri dunyada məşhur olmasa da, dərin hikmət, məna aşılayır uşaqlara. Bu cizgi filmlərin mövzusu həqiqətə olduqca yaxındır və uşaqları xeyirxahlığa, dostluqda sədaqətə, mərdliyə, mübarizəyə çağırır. Mən ümid edirəm ki, bir neçə ildən sonra bizim də cizgi filmlərimiz, cizgi film qəhrəmanlarımız dünya uşaqlarının sevimlisinə çevriləcək. Televiziya vaxtını əyləncəli cizgi filmi və məlumat kanallarına ayırın. Hər hansı bir uşağa gəldikdə, ümumi bilikləri inkişaf etdirmək, orta dərəcədə və yaş qrupuna uyğun bir şəkildə həyata keçirilən əyləncəli bir məşq olmalıdır.

**Basatın igidliyi** (1988)



Filmdə müdrik Dədə Qorqud gənc döyüşçünün cəsarətini görüb ona Basat adını verir. Basat əzazil Təpəgözə qalib gəlib uşaqları, anaları bəladan qurtarır. Kukla filmidir.

**Cavanşir**



Hərbi-vətənpərvərlik mövzusunda olan bu kinolentdə yeniyetmə bir oğlanın Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlıqdan danışılır. Cizgi filmi Azərbaycanda ilk dəfə olaraq kompüter vasitəsilə yaradılmışdır. Film uşaqlara həsr olunmuşdur.

**“Tülkü həccə gedir”**




Bir zamanların bütün kiçik yaşlı tamaşaçıları bu filmə dövlət televiziyasında dəfələrlə baxardılar. Ayrı-ayrı məktəblər və uşaq teatrlarında səhnələşdirilən mənzum nağıl sonradan ekranlara da yol tapdı. Burada hikmətli bir əhvalatdan-qocalıb əldən düşən tülkünün özünə yem tapması üçün fikirləşib necə yeni fənd işlətməsindən danışılır. Filmdə “düşmən çox məharətlə cildini dəyişir” fikri ön plana çəkilir. Düşmən çox məharətlə cildini dəyişir. O gücü hesabına deyil, hiylə və ikiüzlülük sayəsində öz alçaq məqsədinə nail ola bilər. Applikasiya filmidir. Film uşaq yazıçısı Abdulla Şaiqin eyniadlı nağılı əsasında ekranlaşdırılmışdır. Film geniş tamaşaçı kütləsi üçün nəzərdə tutlmuşdur.

## “Uşaq və külək”



“Toplumun yeddi rəngi var, hamısı ona yaraşar” misraları ilə başlayan bir mahnını və o mahnını oxuya-oxuya topun arxasıyca qaçan balaca oğlanı yəqin ki, hamınız xatırladınız.
O balaca oğlan “uşaq  və külək” cizgi filmində SSRİ-nin balacalara şüuraltı olaraq yeritdiyi “elmi-texniki inqilabın əsas təbliğatçısı kimi çıxış edir. Belə ki, uçan xalça, tovuzquşu topa çata bilmir.
Yalnız raket topu göydən alaraq uşağa verir. Burada sovet rejimi artıq nağılların mənasızlığını, məqsədə yalnız elmi - texniki yolla çatmağın mümkünlüyünü balacalara elə onların öz diliylə göstərirdi.
Filmdə külək əsas obraz kimi tamaşaçıların nəzərinə çatdırılır və bütün hadisələr onun ətrafında cərəyan etsə də, sonra sovet elminin məhsulu olan raket ona qalib gəlir.

**Qız qalası əfsanəsi ( 1978)**



Kinolentdə hər şeyə qalib gələn məhəbbətin gücündən, xalq müdrikliyindən, vətənə, xalqa sədaqətdən bəhs olunur.
Film Azərbaycan xalq əfsanəsinin motivləri əsasında çəkilmişdir.

**Sehirli çıraq ( 1987)**



Film lovğa Nazimin öz səhvi ucbatından daim çətinliklərlə qarşılaşmasından, sonradan isə öz səhvlərini başa düşərək peşmançılıq çəkməsindən danışır. Kukla filmidir.

## Meşəyə insan gəlir ( 1980)



İnsan meşədə görünən kimi, bütün heyvanlar qorxularından əl-ayağa düşürlər. Onlara elə gəlir ki, insan bu dəqiqə meşəni də, heyvanları da məhv edəcək. Amma hər şey onların düşündüklərinin əksinə olur. İnsan nəinki meşədəki ağaclara və heyvanlara qayğı ilə yanaşır, hətta, onları yanğın təhlükəsindən xilas edir. Bunu görən heyvanlar sakitləşirlər. Meşədə həyat öz əvvəlki məcrasına düşür.

## Göyçək Fatma (film, 1988)

Film Azərbaycan kinosunda ən uzunmetrajlı cizgi filmi olub. Bu film-opera Azərbaycan Xalq Təhsili Nazirliyinin sifarişi ilə istehsal olunub. Kinolent Azərbaycan xalq nağılının motivləri əsasında çəkilib. Applikasiya filmidir. Janrca

məişət nağıllarına aid olan "Göyçək Fatma"da ailədaxili münasibətlər-ögey ana və uşaq münasibətləri, bir evin içindəki ayrıseçkiliklər və onun balaca qız uşağının həyatına vurduğu mənəvi zərbədən söhbət açılır.



**Yeni il əhvalatı ( 1986)**



Animasiya filmində yeni il ərəfəsində meşədə tənha qalmış, təklikdən yorulmuş, gözlənilmədən xoşbəxtliyini tapmış

kirpi balasından söhbət gedir. Kirpi xoşbəxtdir ki, özünə pişik balasının timsalında dost tapa bilir. Filmdə dostluqdan, səmimi ünsiyyətdən, xoşbəxtliyə təklikdə deyil, yalnız dostlarla birlikdə nail olmaq haqqında danışılır. Applikasiya filmidir.

## Şah və xidmətçi ( 1976)



Kinolentdə sədaqətli nökər və amansız, qəddar şah haqqında söhbət açılır. Günlərin birində zalım şah gənc nökərinə hirslənib onu ac-yalavac itlərin qarşısına atır... İtlər nökərin üstünə hücum etsələr də onu tanıyıb çəkilirlər. Məlum olur ki, vaxtilə nökər həmin itlərə qulluq edib, onları yedizdiribmiş. Beləliklə də, itlər oğlanın yaxşılığını yerə vurmur, ona toxunmurlar. Şah isə cavan nökərin ona sədaqətlə qulluq etməsinə baxmayaraq onu öldürtdürmək qərarına gəlir.

Filmdə belə bir fikir irəli sürülür: şərlə mübarizədə xeyir həmişə qalib gəlir.
Film Nizami Gəncəvinin əsərinin motivləri əsasında çəkilmişdir.

**Cırtdanın yeni sərgüzəşti (1973)**




Burada Azərbaycan xalq nağılının məşhur qəhrəmanının bizim günlərdə başına gələn yeni əyləncəli sərgüzəştlərindən söhbət açılır. Filmdə xalq folklorunun fantastik motivləri ilə müasirlik bir-birini tamamlayır. İnsan düşüncəsinin məhsulu olan nəhəng müasir texnika bəşər övladına həmişə kömək etməyə hazırdır. Budur, əfsanəvi Simurq quşu və xalça-təyyarə sehrli yumağın arxasınca nə qədər uçurlarsa da xeyri olmur, onu tuta bilmirlər. Köməyə güclü və xeyirxah raket gəlir. O, sehrli yumağı tutub balaca Cırtdana qaytarır.

**Pıspısa xanım və Siçan bəy ( 1974)**



Burada belə bir fikir söylənilir ki, hər bir adamın dostu olmalıdır. Lakin dost qazanmaq üçün sən də dostluq etməyi bacarmalısan. Film Abdulla Şaiqin "Tıq-tıq xanım" nağılının motivləri əsasında çəkilmişdir.
Hamının "Tıq-tıq xanım" kimi tanıdığı cizfi filmində hər bir adamın dostu olmalıdır fikri önə çəkilir. Lakin "dost qazanmaq üçün sən də dostluq etməyi bacarmalısan" fikri də dəstəklənir. Film Abdulla Şaiqin "Tıq-tıq xanım" nağılının motivləri əsasında çəkilib. "Əlini mənə bəsdərəcik", "Yox, yox mən səndən küsdərəcik" sitatları bir zamanlar bütün uşaqların dillər əzbəri idi.

***İndi isə gəlin 40-50 il əvvəl hər ailədə uşaqların intizarla gözlədiyi və onların dünyagörüşünün formalaşmasına təsir edən cizgi filmlərindən bəhs edək.***

**“Nu poqodi”**



Uşaqlıq xatirələrindən bizə yadigar qalan SSRİ cizgi filmlərini hələ də unuda bilmirik. Məsələn, “Nu Poqodi” cizgi filmi bunlardan biridir. Bu cizgi filminin uğuru insanları əyləndirməsində idi. Bununla belə, cizgi filminin çəkilmə səbəbi haqqında müxtəlif fikirlər səslənir. Məsələn, deyilənə görə, 1940-ci ildə ilk seriyası çəkilən, 1967-ci ildə isə artıq bütün dünyada populyar olan və sevilən “Tom və Cerri” cizgi filmindən sonra SSRİ rəhbərliyi onu kölgədə qoya biləcək cizgi qəhrəmanlarının yaradılması barədə göstəriş verib.
Beləcə, “Nu poqodi” yaranıb. Cizgi filmindəki sevimli canavar obrazı ilə bağlı rəssamlar və senzura arasında böyük mübahisələr yaranıb. Çətinliklərə baxmayaraq, cizgi filmi 1969-cu ildə ekrana buraxılıb və ilk dəfədən tamaşaçıların böyük rəğbətini qazanıb və hər kəs tərəfindən sevilərək izlənilib. Yeri gəlmişkən, bu cizgi filmində Azərbaycan

bəstəkarı Qəmbər Hüseynlinin məşhur “Cücələrim” mahnısı da səslənib.

**“Vinni Pux”**



Ayı balası “Vinni-Pux” personajı ilə oxucular ilk dəfə ingilis yazıçı Alan Aleksandr Milnin povest və şeirlərində tanış olublar. 1960-1970-ci illərdə Boris Zaxoderin əsəri yenidən nəql edib. Sonra Leonovun səsləndirdiyi “Soyuzmultfilm” studiyasının filmləri “Vinni-Pux”u Sovet İttifaqında da məşhur edib.

Vinni-Pux necə yaranıb? Milnin kitablarının digər əksər personajları kimi ayı balası Vinni də həqiqi obrazdır. Leytenant Harri Kolbornun 1914-cü ildə 20 dollara aldığı bu ayı Birinci Dünya Müharibəsi vaxtı İngiltərəyə gətirilib. Tezliklə londonluların sevimlisinə çevrilən sevimli heyvana yazıçının tək övladı Kristofer Robin də biganə qalmayıb.

4 yaşlı Kristofer Robin atasının 1924-cü ildə aldığı ayı oyuncağına elə Vinni adını qoyub.1981-ci ildə 61 yaşlı Kristofer Robin Miln London zooparkında Vinniyə heykəl qoydurub. “Vinni” adlı oyuncaq ayı isə hazırda Nyu-York kitabxanasının uşaq otağında yerləşir. Vinninin dostları da həqiqidir. Əsərdə 1920-ci illərdə orta təbəqəli ingilis ailəsi təsvir olunub. Miln əsərdə uşağa sevgi və qayğı, böyüklərin qərarlarına qarışmama kimi məqamların olması onu SSRİ-də sevdirib.

**“Bremen musiqiçiləri”**



Qrimm qardaşlarının eyniadlı nağılları əsasında çəkilən bu cizgi filmi sözün əsl mənasında bir musiqili fantaziyadır. Rok-n-roll elementləri ilə yazılan musiqinin bəstəkarı Qennadi Qladkovdur. 1973-cü ildə müzikl janrında cizgi filmi çəkilib. Baş qəhrəmanlar: Trubadur və onun dostları – uzunqulaq, it, pişik və xoruz tamaşaçıların sevimliləridir

**Çipollino**



Çipollino italyan uşaq yazıçısı və jurnalist Canni Rodarinin kitabının əsas qəhrəmanıdır. Çipollino İtaliya dilindən tərcümədə “soğancıq” mənasını verir. Cəsarətli, qorxmaz, qıvraq və ağıllı soğancıq oğlan meyvə və tərəvəzlərin nağıllar aləmində qəddar şahzadə Limonun, zalım senyor Pomidorun və lovğa Albalı qrafinyalarının hakimiyyətindən xilas olmaqda ölkə sakinlərinə yardım edir. Yəqin ki, İtaliya yazıçısı Canni Rodarinin “Çipollinonın macəraları” nağıl-povestini oxumusunuz, ya da heç olmasa cizgi filminə

baxmısınız. Bu maraqlı nağılın müəllifi məşhur italyan uşaq yazıçısı və jurnalist Canni Rodaridir.

**"Karlson"**



İsveç yazıçısı Astrid Lindqren yaratdığı Karlson obrazı ilə bütün dünyada tanınıb. 2002-ci ildə vəfat edın yazıçının adına hətta mükafat da təsis edilib. Hər il ən yaxşı uşaq ədəbiyyatı nümunələri yaradan yazıçılar bu mükafata layiq görülürlər. Bu həm də onun göstəricisidir ki, Karlson obrazı özündən sonrakı bütün obrazların sılıfi hesab olunur. O, damda yaşayır. Kimsə ilə dostluq etmir. Lakin günlərin bir günündə damlarda yaşayan Karlson bir balaca oğlanla yaxın dost olur. Bir zamnlar bütün sovet uşaqları toppuş Karlsonu çox sevirdilər...

## Nağıl-cizgi filmləri üzrə oyun proqramı-viktorina

Uşaqlar arasında cizgi filmləri ilə bağlı viktorinaların təşkil olunması da məqsədəuyğundur. Bu viktorinalarda onlara sevimli cizgi film qəhrəmanları, cizgi filmlərinin musiqiləri, cizgi filmləri kimi hazırlanmış nağıllar, bədii əsərlər və s. haqqında suallar verilir.

**1.Tanıdığın Azərbaycan cizgi filmlərinin adını qeyd edin:**
Cavab: "Cücələrim", "Meşəyə insan gəlir", "Sehrli ağac", "Taya", "Dəcəl dovşan", "Sandıq", "Sən belə cumbulusan", "Sehrli ləçək", "Uçan zürafə", "Qəribə əjdaha", "Balaca çoban", "Humayın yuxusu", "Ana ağaca qonub", "Xeyir və Şər", "Cırtdan-pəhləvan", "Uşaq və külək", "Akvarium", "Cırtdan və div", "Yeni il əhvalatı", "Sehrli naxışlar"

**2.Tıq-tıq xanımın ayaqqabıları nədən idi?**
Cavab:Fındıq qabığından

**3.Göyçək Fatmanın əlçinini kim apardı?**
Yel baba

**4.Məlikməmməd padşahın neçənci oğlu idi?**
Cavab:Üçüncü oğlu

**5.Nöqtələrin yerini düzgün cavabla doldurun**
"Sindibad .......... səyyahıdır"
Cavab: dəniz

**6. "Tülkü həccə gedir" cizgi filmi hansı yazıçının əsəri əsasında çəkilmişdir?**
Cavab: A.Şaiq

**7.Yeni il əhvalatı cizgi filmi nədən bəhs edir?**
Filmdə yeni il ərəfəsində meşədə tənha qalmış, təklikdən yorulmuş, gözlənilmədən xoşbəxtliyini tapmış kirpi balasından söhbət gedir. Kirpi xoşbəxtdir ki, özünə pişik balasının timsalında dost tapa bilir. Filmdə dostluqdan, səmimi ünsiyyətdən, xoşbəxtliyə təklikdə deyil, yalnız dostlarla birlikdə nail olmaq haqqında danışılır.

**8. Şah və xidmətçi cizgi filmi hansı yazıçının əsərinin motivləri əsasında çəkilib və mövzusu nədir?**

Cavab: Nizami Gəncəvinin “Şah və xidmətçi əsərinin motivləri əsasında çəkilib. Sədaqətli nökər və qəddar şahdan bəhs edir.

**9.Bremen çalğıçılarının adlarını söyləyin.**

Cavab: Uzunqulaq, it, pişik, xoruz

**10.Karlson cizgi filmi hansı yazıçının əsərinin qəhrəmanıdır?**

Cavab:İsveç yazıçısı Astrid Lindqrenin

**11. Çippolina hansı yazıçının əsərinin qəhrəmanıdır və mənası nədir?**

İtalyan yazıçısı Conni Rodari.Mənası Soğancıqdır.

**12.Çiçəkləri sevən qatar haqqında cizgi filminin adını xatırlayırsınız?**

Cavab: "Romaşkovodan gələn qatar"

**13. Maşının damında oturan kim qarmon çalırdı?**

Cavab:Timsah Gena.

**14. Zoluşkanı kralın təşkil etdiyi şənliyə çatdırmaq üçün pəriyə əzəmətli atlara çevrilməsi üçün neçə siçan lazım idi?**

Cavab:Altı siçan

**15. Canavarın dovşanı qovduğu yarış maşınının nömrəsi kimin yadındadır?**

Cavab: (№ 13.)

**16. Hansı pişik velosiped sürməyi sevir və onun haqqında mahnı oxuyur?**

Cavab:Pişik Leopold

**17. Chunga-Changa nədir?**

Cavab: Ada

**18. Məşhur qısametrajlı cizgi filmləri kolleksiyasının adı nədir?**

Cavab:"Şən karusel"

19. “Sadəcə sən gözlə!” cizgi filmində neçə epizod var?

Cavab: (İyirmi iki.)
**20. Bu dünyaca məşhur karikaturaçı rəssamın ilk filmi 1928-ci ildə çəkilib. Biz kimdən danışırıq?**
Cavab: (Uolt Disney haqqında.)
**21. Uolt Disneyin ilk filmi kim haqqında idi?**
Cavab: (Mikki Maus haqqında "Steamboat Willie" filmi.)
**22. Sehrli çırağın sahibi kimdir?**
Cavab: Ələddin
**23. Şarl Perronun nağılı əsasında çəkilmiş cizgi filmində baş örtüyü və çəkmələrlə bildirilən nağıl qəhrəmanlarını söyləyin.**
Cavab: ( Qırmızı papaq, (Çəkməli pişik.)
**24. Onlar yorulurlar və mahnılar oxuyurlar Şübhəsiz istedadlar.**
Cavab: (Bremen şəhərinin musiqiçiləri.)
**25. Cəngəllikdə böyüdüyünə görə, kim meymundan sürətlidir.**
Cavab:Mauqli
26. Mən hər şeydən əvvəl yaşayıram
Günəşli damda
Mənim üçün gözəl bir ev var.
Bir fincan çay üçün
sizi dəvət edirəm -
Özünüzlə mürəbbə gətirin.
Cavab:Karlson



Oyun hədiyyələrin təqdim edilməsi və cizgi filminə baxılması ilə başa çatır.

Cizgi filmləri günü ilə bağlı uşaq kitabxanalarında uşaqlar arasında təşkil olunun **əyləncəli oyunlar və yarışmalar:** Tapşırıq məqsədləri:

- ibtidai məktəb yaşlı uşaqların yaradıcılıq qabiliyyətlərinin inkişafı;
- oyun fəaliyyətləri vasitəsilə sinif komandasını toplamaq;
- animasiya sənətinə idrak marağın formalaşması;
- məktəblilərin yaşını nəzərə almaqla onların dünyagörüşünün genişləndirilməsi.

Qeydiyyat:

Lövhədə (ekranda) uşaqlara tanış olan cizgi filmi qəhrəmanlarının qəhrəmanlarının adları olan kartlar var. Həm də divarlar və lövhələr əvvəlcədən uşaqların özləri tərəfindən hazırlanmış cizgi filmi personajları ilə rəsmlərlə bəzədilib. ("Mənim sevimli qəhrəmanım" rəsm müsabiqəsi).

Oyunun iştirakçıları: 3-4-cü sinif şagirdləri. Komandaların optimal sayı 3-dür.

Oyunu müəllim və ya orta məktəb şagirdləri oynayır.

Əlavə material: film ensiklopediyası, uşaqlar üçün tapşırıq kartları, fasilitator üçün tapşırıq kartları, A3 vərəqləri, markerlər.

Oyunun qaydaları: arxa tərəfində qəhrəmanların adları olan kartlarda müxtəlif tapşırıqlar yazılır. Oyunun əvvəlində heç-heçə edilir. Hər komandanın kapitanı rəqibinə hədiyyə olaraq qəhrəmanı olan vəsiqə verir: "Mən rəqibimə ... (qəhrəmanın adı) ilə cizgi filmi vermək istəyirəm". Rəqib komanda bu

kartdan tapşırıq yerinə yetirir. Hər bir müsabiqə-tapşırıq üçün aparıcı nağıl ölkəsinin pulunu paylayır. Oyun bütün kartlar paylanana qədər davam edir. Sonda ümumi say hesablanır, qalib təyin olunur.

Mükafatlar və hədiyyələr: komandalar diplom və hədiyyələrlə mükafatlandırılır.

Aparıcı: Günortanız xeyir, əziz uşaqlar, əziz böyüklər. Bu gün sizə Multlandia ölkəsi ilə səyahətə çıxmağı, bütün tanış cizgi filmlərinin personajları ilə tanış olmağı və müxtəlif müsabiqələri tamamlamağı təklif edirəm. Ancaq əvvəlcə cizgi filmlərinin yaradılması haqqında kiçik bir hekayəyə qulaq asın. Ehtiyatlı olun, o, daha sonra yarışların birində sizə kömək edəcək.

Uşaqlar üçün mesaj. "Animasiya" sözü latınca "çoxalma" deməkdir. İnsan gözü saniyənin iyirmidə biri üçün tor qişada istənilən təsviri saxlayır. Elmdə bu fenomen davamlılıq və ya vizual təəssüratların ətaləti adlanır. Kinoproyektor saniyədə 24 kadrdan keçdiyindən, hər biri saniyənin 1/25-i davam edir, onların hamısı bir davamlı təsvirdə birləşir. Bu, kinematoqrafiyanın prinsipidir.

1936-cı ildə o dövr üçün ən müasir texnika ilə təchiz edilmiş “Soyuzmultfilm” studiyası yaradıldı. Bu, uşaqlar üçün çəkilən cizgi filmlərinin sayını kəskin şəkildə artırmağa imkan verdi. Və təbii ki, hamınız amerikalı rejissor Uolt Disneyi, Qar Ağ və Yeddi Cırtdan, Zoluşka, Yatan Gözəl və s. kimi cizgi filmlərinin məşhur animatorunu çox yaxşı tanıyırsınız.

Hazırda kompüter proqramlarında çəkilmiş cizgi filmləri var və ya onlara animasiya filmləri də deyirlər.

Yaxşı, indi uşaqlar, Multlandiyaya səyahətə gedək. İstənilən cizgi filmindən musiqi kimi səslənir.

Təklif olunan müsabiqələr və tapşırıqlar.

Vinne pux. (hər üç komanda üçün yarış). "Bir cizgi filmi toplayın." Bu tapşırıq üçün komandadan iki iştirakçı dəvət olunur, cizgi filmindən bir çərçivə ilə bir kart alırlar. Tapşırıq: digər çərçivələr arasında xüsusi olaraq bu cizgi filminə aid olanları seçin. Adını deyin, əsas personajları adlandırın.

"Bremen şəhərinin musiqiçiləri" filminin detektivi: "Qəhrəman tap" - bir komanda üçün müsabiqə. Çıxarış və ya təsvir oxunur, ona görə qəhrəmanı və cizgi filminin adını təxmin etmək lazımdır.

Bu filmin qəhrəmanı olan qızın adını üzünün rənginə görə qoyublar. O, evini tərk etməli oldu, çünki pis bir qadın ona həsəd aparırdı. Qız çox, çox müxtəlif bitkilərin, heyvanların olduğu yerdə sona çatdı, əvvəlcə çox qorxan dostlar etdi. Pis qadının qara hiylələrinə görə qız yuxuya getdi. Dünyanı dolaşan bir gənc ona kömək edə bilərdi. (Ağbəniz və Yeddi Cırtdan")

1. Əli Baba ilə birlikdə xəzinə mağarasının qapısını açın. (Sim-sim, aç!)
2. Sehrli qazanda sıyıq qaynadın. (Bir, iki, üç, qazan, qaynat!)

"Xəzinə adası" filmindən pirat: bütün komandalar üçün "Qaya rəsmləri" müsabiqəsi. Bir iştirakçı dəvət olunur. Fasilitator sözləri oxuyur, iştirakçı bu anlayışları bir kağız parçasına çəkməli, sonra rəsm əsərini başa çatdırmalı və onun üçün bir ad tapmalıdır.

Sözlər: sevgi, gülüş, sevinc, təvazökarlıq, inciklik, dostluq, ümidsizlik, arzu, xoşbəxtlik.

Mauqli: Pantomima bacarıqlarının yarışması. İştirakçılar komandası heyvan sürülərini (meymunlar, pişiklər, zürafələr, xoruzlar, ilanlar) təsvir edir. Qiymətləndirilmiş keyfiyyət, orijinallıq.

Düyməcik. Bir komanda üçün "Yeməyi bişirin" müsabiqəsi. Kartda məhsulların adları yazılıb. Bir dəqiqə ərzində bişirmək üçün lazım olan yeməkləri seçin. Uşaqlar öz yeməkləri ilə gəlirlər. Orijinallıq qiymətləndirilir.

Aibolit. "Vitamin". Bir sinifdən (bu tapşırığı alan sinifdən) 10 nəfər dəvət olunur. Tapşırıq: hər kəsin yalnız bir dəfə dişləyə bilməsi şərti ilə bütün komanda ilə bir yerkökü yeyin və hər bir iştirakçı yerkökündən bir parça dişləməlidir.

Aslan Kral. "Düşün və söylə." Komandanın bir üzvü üçün sorğu. 1 dəqiqə ərzində bacardığınız qədər çox suala cavab verin.

1. Latın dilində "animasiya" sözü nə deməkdir? (Çarpma).
2. Yeni cizgi filmi harada yaradılır? (studiyalarda).
3. Cizgi filmləri bütün dünyada nümayiş olunan amerikalı rejissorun adını çəkin. (Walt Disney).
4. Baş qəhrəman Alisa Selezneva ilə cizgi filminin adı nədir? ("Üçüncü planetin sirri").
5. Birə ayaqqabı geyindirən oğlanın adı nə idi? (Sol)
6. Fyodor dayının dostlarını (Pişik, İt, Qarğa) adlandırın.
7. Bir personajın daim ikincisindən sonra qaçdığı bir rus cizgi filmini adlandırın. ("Gözləyin!")
8. "Düyməcik" filmində Mole nə düşünürdü? (Taxıl)

9. Snow White yuxuya getməzdən əvvəl nə yedi? (Alma)
10. Məşhur Amerika cizgi filmindəki pişik və siçanın adı nə idi? (Tom və Ceri)

## Azərbaycan cizgi filmlərinin siyahısı




- Abbasın bədbəxtliyi (film, 1935) (cizgi filmi)
- Ad günü (film, 1992) (cizgi filmi)
- Akvarium (film, 1983) (cizgi filmi)
- Anam ağaca çıxıb (film, 1986) (cizgi filmi)
- Analar və laylalar (film, 1992) (cizgi filmi) (TV)
- Arzular... Arzular... (film, 1988) (cizgi filmi)
- Arzunu yarat (film, 1977) (cizgi filmi)
- Aslan və iki öküz (film, 1970) (cizgi filmi)
- Ayı və siçan (film, 1970) (cizgi filmi)
- Ayna (film, 2006) (cizgi filmi)

- Bahar əyləncələri (film, 1989) (cizgi filmi)
- Balaca çoban (film, 1985) (cizgi filmi)
- Basatın igidliyi (film, 1988) (cizgi filmi) (TV)
- Başlanğıc (film, 1982) (cizgi filmi) (TV)
- Bil (film, 2017) (cizgi serialı)

- Bir axşam... (film, 1985) (cizgi filmi)
- Bir dəfə (film, 1990) (cizgi filmi)
- Bulud niyə ağlayır? (film, 1973) (cizgi filmi)
- Bülbülün Asəf Zeynallı haqqında xatirələri (film, 2021) (cizgi filmi)

- Cat (film, 1933) (cizgi filmi)
- Cavanşir (film, 2002) (cizgi filmi)
- Cəsur təyyarə (film, 2009)
- Cırtdan (film, 1969) (cizgi filmi)
- Cırtdan-"pəhləvan" (film, 1981) (cizgi filmi)
- Cırtdan və div (film, 1983) (cizgi filmi)
- Cırtdanın yeni sərgüzəşti (film, 1973) (cizgi filmi)
- Cücələrim (film, 1980) (cizgi filmi)

- Çaqqal oğlu çaqqal (film, 1972) (cizgi filmi)
- Çalalar (film, 2000) (cizgi filmi)
- Çətin məsələ (film, 1988) (cizgi filmi)

- Danışan işıqlar (film, 1965) (cizgi filmi) (TV)
- Daş (film, 1977) (cizgi filmi)
- Dostlar (film, 2017) (cizgi serial)
- Dəcəl dovşan (film, 1981) (cizgi filmi)
- Dədə Qorqud (cizgi filmi) (cizgi filmi)
- Dəniz səyahəti (film, 1992) (cizgi filmi)
- Dəniz səyyahı Sindbadın macəraları (film, 1941) (cizgi filmi)
- Dınqıl, sazım, dınqıl (film, 1976) (cizgi filmi)
- Düşüncə (film, 1987) (cizgi filmi)

- ...Əks-səda doğuracaq (film, 1987) (cizgi filmi)
- Əlifba (film, 2016)

- Əndazədən çıxanda (film, 1988) (cizgi filmi)
- Ən güclü kimdir? (film, 2014)

- Fitnə (film, 1970) (cizgi filmi)

- Gəldi kosa (film, 1988) (cizgi filmi)
- Gəlin birgə öyrənək: Rənglər (film, 2014)
- Gəlin birgə öyrənək: Rəqəmlər (film, 2015)
- Gənc memar (film, 1978) (Cizgi Süjet-Mozalan № 41)
- Göyçək Fatma (film, 1973) (cizgi filmi) (TV)
- Göyçək Fatma (film, 1988) (cizgi filmi)
- Günlərin bir günündə... (film, 1975) (cizgi filmi)
- Güzgü (cizgi filmi, 1990) (cizgi filmi)

- Humayın yuxusu (film, 1985) (cizgi filmi)

- Xeyir və Şər (film, 1980) (cizgi filmi)
- Xeyirxah nağıl (film, 1986) (cizgi filmi) (TV)
- Xoruz (film, 1977) (cizgi filmi)
- Xrizantema yarpağı (film, 1989) (cizgi filmi)

- İfritə Meymunə (film, 1992) (cizgi filmi)
- İlbizin evi (film, 2011)
- İlham (film, 1972) (cizgi filmi) (TV)
- İthaf (film, 1990) (cizgi filmi)
- İt sərgisi (film, 2010)

- Karvan (film, 1995) (cizgi filmi)
- Keşikçi (film, 1990) (cizgi filmi)
- Kirpi balası və alma (film, 1977) (cizgi filmi)
- Kitabi Dədə Qorqud. Basat və Təpəgöz (film, 2003) (cizgi filmi)

- Kitabi Dədə Qorqud. Səkrəyin dastanı (film, 1990) (cizgi filmi)
- Köhnə mismar (film, 2014)
- Köhnə saat (film, 2014)
- Kürən (film, 1989) (cizgi filmi)

- Qara leylək (film, 1985) (cizgi filmi) (TV)
- Qaravəlli (film, 1989) (cizgi filmi)
- Qaravəlli-2 (film, 1992) (cizgi filmi)
- Qarğa balası və özgə yuvası (film, 2005)
- Qozbeli qəbir düzəldərmi? (film, 1972)'(Cizgi Süjet-Mozalan № 6)
- Qəribə əjdaha (film, 1984) (cizgi filmi)
- Qırmızılar, qaralar və başqaları (film, 1969) (cizgi filmi) (TV)
- Qız qalası (film, 1984) (cizgi filmi) (TV)
- Qız qalası əfsanəsi (film, 1978) (cizgi filmi)
- Qızıl (film, 2004) (cizgi filmi)
- Qurbanəli bəy (film, 1989) (cizgi filmi) (TV)

- Lağım (film, 1993) (cizgi filmi) (TV)
- Lovğa fil balası (film, 1987) (cizgi filmi)

- Meşəyə insan gəlir (film, 1980) (cizgi filmi)
- Mənim balaca Şahzadəm (film, 2019)
- Mərhəmətin dadı (film, 2007) (qısametrajlı cizgi filmi)
- Milli əjdaha (film, 2007) (Cizgi Süjet-Mozalan No:183)
- Molla Nəsrəddin Xoca (film) (cizgi filmi)
- "Mozalan"ın nağılı (film, 1979) (Cizgi Süjet-Mozalan № 50)
- Möcüzələr adası (film, 1978) (cizgi filmi) (TV)
- Münəccimin şagirdi (film, 1983) (cizgi filmi)

- Nar ağacının nağılı (film, 1989) (cizgi filmi)
- Nuş olsun (film, 2008)

- Oda (film, 1990) (cizgi filmi)

- Pəncə... Qulaq... Palaz... Tikan... (film, 1976) (cizgi filmi)
- Pıspısa xanım və Siçan bəy (film, 1974) (cizgi filmi)

- Sağ ol, dostum (film, 1980) (cizgi filmi) (TV)
- Sakit Yonun macəraları (film, 1985) (cizgi filmi)
- Sandıq (film, 1982) (cizgi filmi)
- Seans (film, 1988) (cizgi filmi)
- Sehrlənmiş küpə (film, 1979) (cizgi filmi)
- Sehrli ağac (film, 1980) (cizgi filmi)
- Sehrli çıraq (film, 1987) (cizgi filmi) (TV)
- Sehrli ləçək (film, 1983) (cizgi filmi)
- Sehrli naxışlar (film, 1984) (cizgi filmi)
- Sən belə cımbılısan (film, 1982) (cizgi filmi)
- Sınaq (film, 1985) (Cizgi Süjet-Mozalan № 96)
- Siçan və pişik (film, 2008) (qısametrajlı cizgi filmi)
- Sonrakı peşmançılıq (film, 1978) (cizgi filmi)
- Söhbətül-əsmar (film, 1994) (cizgi filmi)

- Şah və xidmətçi (film, 1976) (cizgi filmi)
- Şahzadə-qara qızıl (film, 1974) (cizgi filmi)
- Şahzadə qız (film, 1991) (cizgi filmi)
- Şüalə (film, 1994) (cizgi filmi)

- Talada ev (film, 1986) (cizgi filmi)
- Taya (film, 1980) (cizgi filmi)
- Təqib (film, 1984) (cizgi filmi)

- Tıq-tıq və dostları möcüzələr axtarışında (film, 2020) (cizgi filmi)
- Tırtılın arzusu (film, 2014)
- Toplan və kölgəsi (film, 1977) (cizgi filmi)
- Toral və Zəri (film, 1979) (cizgi filmi)
- Torpaq (film, 2002) (cizgi filmi)
- Tülkü həccə gedir (film, 1971) (cizgi filmi)

- Uçan zürafə (film, 1983) (cizgi filmi)
- Ustalar-qızıl əllər (film, 1976) (cizgi filmi) (TV)
- Uşaq və külək (film, 1982) (cizgi filmi)

- Ümid (film, 1992) (cizgi filmi)

- Yalançı çoban (film, 1991) (cizgi filmi)
- Yaramaz kral (film, 1990) (cizgi filmi)
- Yatmaq vaxtıdır (film, 1984) (cizgi filmi)
- Yayın bir günündə (film, 1979) (cizgi filmi) (TV)
- Yerli kadr təsdiqə gedir (film, 1973) (Qısametrajlı Cizgi Süjet-Mozalan № 10)
- Yeni il əhvalatı (film, 1986) (cizgi filmi)
- Yol yoldaşı (film, 2017) (cizgi serial)

**F.Köçərli adına RUK-nın Məlumat və biblioqrafiya şöbəsinin hazırladığı ədəbiyyat siyahısı:**

Bakuqan : "Bakuqan" cizgi filmi tarixi haqqında // Elli. - 2010. - N 11. - S. 4, 5.
Çingiz. Cizgi filmlərinin kralı : məşhur " Disney " cizgi filminin yaradıcısı rejissor Uolt Disney haqqında // Mədəniyyət. - 2011. - 14 dekabr. - № 92. - S. 14.

Elsevər S. Animasiya filmlərində heyvan obrazları // Ədəbiyyat qəzeti. - 2020. - 19 sentyabr. - № 40/41. - S. 5.

Əzimova S. Azərbaycan cizgi filmləri və uşaq hissiyyatı // Qobustan. - 2015. - № 4. - S. 64-68.

Fəxriyyə. Uşaq kino bayramı keçirildi // Mədəniyyət. - 2009. - 20 noyabr. - N 84. - S. 2.

Məhərrəmova T. Mənəvi dünyaya pəncərə : Azərbaycanda cizgi filmlərinin yaranması // Kaspi. - 2011. - 4 mart. - № 41. - S. 12.
Şəfiqə. Cizgi filminin dublyajı daha çətindir // Planet. - 2007. - 16 oktyabr. - S. 3.

Məmmədli N. Balacaları ekrana bağlayan cizgi filmləri // Mədəniyyət. - 2020. - 24 aprel. - № 31. - S. 6.

Tahirqızı E. Cizgi filmlərindən sənədli kinoya // Mədəniyyət. - 2011. - 27 may. - № 38. - S. 11. - rejissor Vaqif Behbudovla söhbət.

50 yaşlı personajlar : Dovşan və Canavar, Çeburaşka, Timsah Genanın yubileyi // Kaspi. - 2019. - 20-22 iyul. - № 130. - S. 6. - Rusiya mətbuatından tərcümə etdi Təranə Məhərrəmova.

# Balacaların cizgi filmi dünyası

**(metodik vəsait)**

**Komputer yığımı
və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**